**UOT 008:316**

**Xanım Mustafayeva**
**Filologiya üzrə fəlsəfə doktoru**
***E-mail***: *xanim.mustafayeva.64@mail.ru*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DƏYİŞƏN DƏYƏRLƏRVƏ YENİ TƏHSİL PARADİQMASI

**Xülasə:** Məqalədə qloballaşma ilə bağlı humanitar təhsilin problemləri araşdırılır. Humanist siyasətin "Modern layihəsi"nə təsir göstərən məsələlər açıqlanır. Humanist fəlsəfəyə söykənən mədəniyyətin formalaşmasında qloballaşan təhsilin vəzifələrinə aydınlıq gətirilir. Humanist prinsiplər əsasında inteqrasiya olunmuş bilik və bacarıqlar sisteminə yiyələnməyin yolları göstərilir.

**Açar sözləri:** təhsil, humanitar siyasət, qloballaşma, inteqrasiyalı bilik və bacarıqların sistemi.

Dünyanı dəyişən inqilablardan, dünya görüşü dəyişdirən texnologiyalaradək öz inkişafında görünməmiş yüksəkliyi və mürəkkəbliyi qət edən sivilizasiya, bu gün həm də sanki miqyaslı və ziddiyyətli problemlərin yaratdığı uçurum qarşısındadır. Bu vəziyyət ilk növbədə, dünyaya münasibətimizə, dünyaya baxışımıza yenidən nəzər salmağı tələb edir. Deməli, dünyanın gələcəyi birmənalı şəkildə dünyagörüşün məzmunundakı dəyərlərdən, mədəniyyətdən, təhsil səviyyəsindən, onların məzmunlu və geniş yayılmasından birmənalı şəkildə asılı olacaqdır.

Ötən əsrin ikinci yarısından başlayaraq dünyada bir "qloballaşma prosesin" getməsi ilə bağlı fikirlər və müşahidələrin nəticəsi, insanlar arasında geniş müzakirələr doğururdu. Dünya alimlərinin diqqətini cəlb edən qloballaşmanın sosial-ictimai hadisənin zaman-zaman həyatımızın bir çox sahələrini əhatə etdiyi və bu sahələrlə bağlı öz "diqtəsini" hökm etdiyi bəlli oldu. Kütləvi informasiya vasitələri, bədii yaradıcılıq, kino, teatr, idman və sair də qloballaşmanın reallaşmasına geniş imkan yaradır. Cəmiyyətin daha yüksək səviyyədəki beyinləri müasir informasiya ilə təchizatlanaraq dünyanın inkişaf etmiş ölkələrinə yetişməyə səy göstərilir. Bu prosesdə sadəcə öyrənmək, yəni informasiya sahibi olmaq yetərli deyildir, həm də öz mədəniyyətini inkişaf etdirmək: estetik, bədii qayğılar və həzzlər formalaşdırmaq: barış, simpatiya və tolerantlıq mühiti yaratmaq, bir sözlə mədəni bir cəmiyyət və yeni mədəniyyət formalaşdırmaq kimi bir hədəf vardır. Biz qloballaşma prosesinə strateji planlı mədəniyyət inşası kimi də baxa bilərik. Ona görə ki, bu prosesdə innovativ-transformativ mədəni dəyişmə ilə yanaşı, həm də bir inkişaf vardır. Deməli, dünyanın gələcəyi birmənalı şəkildə dünyagörüşün məzmunundakı dəyərlərdən, mədəniyyətdən, təhsil səviyyəsindən, onların məzmunundan birmənalı şəkildə asılıolacaqdır. Bu davamlı siyasət xüsusilə təhsillə dəstəklənən bir prosesdir. Qloballaşma; iqtisadiyyat, mədəniyyət, texnologiya, dil, din, siyasət kimi bir çox baxımdan ələ alına bilər. Haluk Tözüm bu mövzuda: "Qloballaşma texnologiya mərkəzli bir dəyişim prosesidir. Kompüterləşmə, telekommunikasiya texnologiyaları, miniaturizasiya, sıxılma texnologiyası və rəqəmsallaşdırma kimi yeniliklər texnologiyanı qlobal miqyasda yayğınlaşdırmaqdadır." demişdir (1)

Qloballaşma prosesi ilə bağlı problemlər respublikamız dövlət müstəqilliyi əldə etdikdən sonra özünü daha qabarıq şəkildə göstərməyə başladı. Dövlətimizin yenidən özünütəşkilində Sovetlər Birliyindən qalanlara nə qədər ikrah hissi ilə yanaşsaq da, bir çox məsələləri qəbul etməli olduq. Zaman

keçdikcə bu məsələlər milli məqsədlərə müvafiq şəkildə ya təkmilləşdirildi, ya da inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinə uyğun qurulması planlaşdırıldı.

15 iyun 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı sosial-iqtisadi problemlər içərisində çabalayan respubilikamızın tarixində yeni bir dövrün, inkişaf və tərəqqinin əsasını qoydu. Milli dövlət quruculuğunda sosial-iqtisadi problemlərdən fərqli olaraq humanitar sahələrdəki yoxsulluqlar daha çox hiss olunurdu.

Yeni dövlət quruculuğunda bütün sahələrin milli zəminə yönəldirilməsinin zəruriliyini qeyd edən H. Əliyev 31 avqust 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə tövsiyyə edirdi: "İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır" (2).

Yeni iqtisadi münasibətlərin formalaşması, müasir informasiya və kommunikasiya texnologiyalarının bütün fəaliyyət sahələrini öz təsiri altına alması ilə əlaqədar olaraq, yeniləşən cəmiyyətin hər bir üzvü, sosial iqtisadi və mədəni sahələrdə əsaslı dəyişikliklərin məcburi iştirakçısına çevrilir. Yeni qlobal sosial-iqtisadi strukturlar hər bir kəsdən iş, bilik və bacarıqların yeni formasını tələb edir, eyni zamanda onu rəğbətləndirir. Dünyanın inkişaf etmiş ölkələrində üstünlük əsasən maddi resurslara deyil əmək ehtiyatlarına, sosial kapitala verilir. Yeniləşən və inkişaf edən cəmiyyətlərdə təhsilə artan ehtiyacların ödənilməsi məsələsi dövlətin iqtisadi inkişafını müəyyənləşdirən amillərdən biri hesab olunur. Bu məqsədlə bir çox ölkələrdə ənənəvi təhsil formaları yeni təhsil modellərinə inteqirasiya olunur, vahid təhsil məkanı formalaşdırmağa çalışırlar. Eyni zamanda informasiya, nəzəri biliklər, təhsilin məzmunu və səviyyəsi strateji resursları olmaqla, hər bir ölkənin suverenliyini, milli təhlükəsizliyini və gələcək inkişafını təmin edir. Təhsilin inkişaf səviyyəsi hər bir ölkənin sosial-iqtisadi, mədəni göstəricisinə çevrilir. İnsanların bütün həyatı boyu təhsilə olan ehtiyaclarının durmadan artmasını, yenilənməli olmasını vacib bilirlər. XXI əsr insanların təhsil səviyyəsinin artırılması ilə yanaşı, həm də yeni intellekt tipinin, sərbəst və fərqli düşünmə tərzinin formalaşdırılması tələblərini qoyur.

Qloballaşan dünyada sürətli dəyişmə prosesinin getdiyini ağıllı insanlar başa düşürlər. Bu prosesdə yeni informasiya texnologiyalarının həyatımızı asanlaşdırması, sosio-mədəni, iqtisadi uğurlara yol alması gerçəklikdir. Artıq bəllidir ki, informasiya cəmiyyəti yaradılmadan heç bir dövlət keyfiyyətli, beynəlxalq standartlara əsaslanan təhsil sistemi qura bilməz. Qloballaşma prosesində iştirak etməyən ölkələr təbii ki, inkişaf edən dünyadan təcrid olunurlar. Bu da öz növbəsində həmin ölkələrin iqtisadiyyatının tədricən çökməsinə aparır. Belə ölkələrin intellektual resursları tez tükənir. Bu vəziyyəti nəzərə alan Azərbaycan Respublikası Prezidenti İlham Əliyev demişdir: "İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intelektual potensiala, yeni texnologiyaların icad olunmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik"(3).

Ümumiyyətlə inkişaf etmiş ölkələrdə təhsilin qloballaşması dedikdə, ilk öncə tədris prosesi və onun idaərə olunmasının inteqrasiyası kimi başa düşülür Amma, təhsildə bu inteqrasiya prosesi qloballaşmanın gətirdiyi problemlərin həlli üçün kifayət deyildir. Təhsil sadəcə qloballaşmaya adaptasiya və yaxud inteqrasiya problemi üçün bir vasitə deyil, o həm də qloballaşmanın yaratdığı problemləri aradan qaldırmaq üçün bir vasitədir. Cəmiyyətlərin və ayrı-ayrılıqda insanların qloballaşmanın doğuracağı mümkün nəticələrə qarşı tədbir görə biləcək və dəyişikliklərdən faydalanacaq qabiliyyətə sahib olmaları vacibdir. Bu səbəbdən, mövcud inkişafları əvvəlcədən nəzərdə tutub, gözlənilən dəyişiklikləri təqib edə biləcək fərdlərin yetişdirilməsi qarşıya məqsəd qoyulmalıdırr. Bu şəxslərin inkişaf edəcəyi yerlər təhsil müəssisələridir. "Təhsil ilə qloballaşma arasında paralel əlaqə mövcuddur. Qloballaşma dünyanın təhsil sistemini yeniləşməyə vadar edərkən təhsil sistemindəki inkişaf da qloballaşma prosesini istiqamətləndirir eyni zamanda sürətləndirir. Bundan əlavə, gələcək cəmiyyət formalarının təhsil siteminin yetişdirdiyi insan tipinə görə formalaşacağını düşündükdə, hər bir ölkənin öz təhsil sistemini nəyə görə qloballaşma prosesinə uyğunlaşdırmağa çalışdığını və qloballaşan dünyanın universal dəyərlərinə uyğun təhsil vermə istəklərini daha yaxşı başa düşmək olar" (4). İndi dünyada öyrənmək, öyrənmə üsullarına yiyələnmək, fərdi olaraq öyrənmək, qruplar və təşkilatlarda öyrənmək, təhsilin əsas elementləri olaraq qəbul edilməkdədir. YUNESKO-nun Təhsil Komissiyası onlara "birlikdə öyrənmək" prinsipini də əlavə etdi. Təhsildə qloballaşmada dörd qanundan bəhs edilməkdədir. Bu qanunlar: öyrənməyi bilmək, öyrənməyi öyrənmək, fərdi öyrənmək və birlikdə yaşamağı öyrənməkdir. Bundan əlavə, təhsildə qlobal yanaşma hərtərəflidir. Fənlərarası elmi tədqiqat yanaşmaları qloballaşan təhsilin müasir metodlarıdır.

Azərbaycan Respublikasının 2005-ci ildən Boloniya prosesinə qoşulmaqla vahid təhsil məkanı və təhsil standartlarının yaradılması istiqamətində uğurlu addımlar atıldı. Təlim proqramları, yeni təhsil təcrübələrini nəzərdə tutan modelləri inkişaf etdirilməsi və inkişaf etmiş ölkələrlə əməkdaşlıq əsas məqsəd kimi müəyyənləşdirildi. "Boloniya prosesi Azəbaycan dövləti üçün milli ali təhsil sistemini

müasirləşdirməkdən və onu bizim cəmiyyətin yeniləşmiş simasına daha da uyğunlaşdırmaq üçün vaxtında meydana çıxmış imkandır" (5). Şübhəsiz ki, qloballaşmanın təhsil sistemində böyük dəyişikliklərə yol açdığı və innən sonra da açacağı bir həqiqətdir. "Erasmus" və "Socrates" kimi tələbə mübadiləsi layihələri bu inteqrasiyanın nümunələrindəndir.

Azərbaycanda təhsil sahəsində çalışanların dünya təhsil məkanının inkişaf tendensiyasınauyğunlaşa bilmək kimi bir sıra yeni keyfiyyətlərin formalaşdırılması məqsədilə 2007-ci ildə "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" qəbul edildi. Burada pedaqoji kadr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturuna aydınlıq gətirildi, onlara müvafiq istiqamətlər üzrə beynəlxalq təcrübəyə əsaslanan yenidövlət təhsil standartları hazırlandı. Müəllimlərin üzərinədüşən öhdəliklərə aydınlıq gətirildi. "Onlar yeni fərdilikləri və xüsusiyyətləri, yeni texnologiyaları və sistemləri nəzərə almalı, öyrənənlərə yeni bilik və bacarıqların əldə edilməsində, yeni cəmiyyətin tələblərinə uyğunlaşmaqda və fasiləsiz təhsil almaqda kömək etməlidirlər" (6).

Son illərdə həyatımızın bütün sahələrinə təsir göstərən yenilik və dəyişikliklərə açıq olmaq, fərqli düşüncə tərzinə dözümlülük (tolerantlılıq), sərbəst bazar iqtisadiyyatı, xüsusilə də qloballaşma prosesi göstərir ki, bir çox sosial-mədəni, iqtisadi və psixoloji təsirə malik olan fərqli bir dövrün içərisindəyik. Dünyamız müxtəlif insanlar, müxtəlif sosial və mədəni ehtiyaclar, yeni həyat tərzləri və müxtəlif vərdişləri ilə daha fərqli və rəngarənk həyat keçirməyə çalışır. Artıq fərqlənən və parçalanan sosial dairənin bütövlüyünün qorunması və saxlanılması problemi yaranır. Məhz bu səbəbdən qloballaşma prosesi insanlarda daha önəmli olan bir sıra dəyərlərlə yanaşı, həm də onlardan bu dəyərləri qorumaq üçün bir məsuliyyət hissi də tələb edir. "İnsan millət, bəşəriyyət həyat dərslərinin təhlili, dərki əsasında əldə etdiyi biliklərdən faydalanmağı, intiqam hissindən daim uzaq olmağı bacardıqca, insanlığın zənginləşməsinə kömək göstərmək imkanını artırmış olacaqdır" (7). Dünyada, eləcə də respublikamızda da "humanist insan" yetişdirilməsi məsələsi daha önəmli, təxirəsalınmaz problemə çevrilmişdir.

Humanist insan problemi son dövürlərin daha mühüm tədqiqat obyektinə çevrilmişdir. Humanist fəlsəfə insanlıq sevgisini, ucalığı və yetkinliyini əsas tutaraq insanın maraq, dəyər və ehtiyaclarını öyrənən bir təlimdir. Humanist prinsiplərə söykənən, hərtərəfli inkişaf etmiş sosial yönümlü insanın formalaşdırılmasında təhsil aparıcı funksiyaya malikdir. Belə fəlsəfəyə söykənən təhsil qarşısına bir sıra məqsədlər qoyur:

1. İnsanları yararlı həyata hazırlamaq.
2. Təhsil alanlara seçmə məsuliyyətini vermək.
3. Sərbəst və fərqli düşünmə tərzi formalaşdırmaq.
4. Yaradıcılıq qabiliyyətini üzə çıxarmaq.
5. Peşə seçimində yardımçı olmaq.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"-da da "Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir..." (8) Humanist təhsil zamanı özünəinam formalaşmalı, duyğu və fərdi seçimlərinə hörmət edilməsi ön plana çıxarılmalı, tam müstəqil, humanist fərd yetişdirməsinə üstünlük verilməlidir. Dünyanın inkişaf etmiş bir çox ölkələrində humanist təhsil anlayışı üç əsas xüsusiyyəti özündə birləşdirir:

1. Təhsil müəssisəsində humanist təhsil mühitinin təmin edilməsi.
2.Təhsil proqramlarının real həyatla birbaşa əlaqəli olması.
2.Tədris planının şəxsiyyətyönümlü olması.

Qloballaşan dünyada humanizm prinsipləri əsasında inteqrasiya olunmuş bilik və bacarıqlar sisteminə yiyələnməyin bir neçə yolları bəllidir:

-ayrı-ayrı elmlərin vahid humanist məqsəd ətrafında inteqrasiya olunması;
-vahid humanist düşüncəyə xidmət göstərən elmi tədqiqat işlərinin aparılması;
-humanist nəzəriyənin yaradılması sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və yayılması.

Mürəkkəb bir konfiqurasiyaya malik olan humanist siyasət özlüyündə cəmiyyətin bütün təbəqələrini əhatə etdir.İnkişaf yolunu seçmiş dövlətlərin humanist siyasətinin formalaşdırılmasının "modern layihə"sində, qloballaşma ilə bağlı əsasən bir sıra vacib məsələlər böyük əhəmiyyətə malikdir:

- dünyanın universal mənzərəsinin yaradılması;
- mövcud reallıqların vahid elmi düşüncəyə gətirməsi;
- yetərli biliklərin formalaşdırılması;
- insanların xoşbəxtliyinin artmasına əmin olunması;
- insanlığın tərəqqisinə, gələcəyin üstünlüyünə inamın artması.

Təhsil sadəcə qloballaşmaya uyum və yaxud, inteqrasiya problemi deyil, eyni zamanda qloballaşmanın yaratdığı problemlərin həlli yollarını tapmaq üçün bir vasitədir (9). Təhsil qloballaşmaya duruş gətirən, müqavimət göstərən, adət-ənənəsinə sahib çıxan, eyni zamanda, yeniliyə açıq insan tipi yetişdirəcəkdir. Tədqiqatçılar tərəfindən qloballaşmanın təhsil üzərindəki təsirləri haqqında müəyyən məqamlara toxunulur, kifayət qədər müzakirələr aparılır və yenə də davam etməkdədir. Mənfi və müsbət tərəfləri diqqət mərkəzinə çəkilir.

Qloballaşma var gücü ilə dünya iqtisadiyyatına, mədəniyyətinə və təhsilinə təsir göstərməkdə davam edir. Təqdim olunan məqalədə qloballaşma prosesində, təhsil sahəsində həyata keçirilən yeniliklər və dəyişikliklərə müəyyən qədər toxunuldu. Bu günləri qloballaşmanın qaçınılmaz bir reallıq olduğu, bütün dünya tərəfindən qəbul olunur. Qloballaşma nədir, təhsil sistemimizə hansı mənfi tərəfləri ilə təsir etməkdədir. Müsbət xüsusiyyətlərini artırmaq və mənfi təsirlərini aradan qaldırmaq üçün nə kimi tədbirlər görülə bilər.

## Ədəbiyyat:


1. Tözüm, Haluk. Küreselleşme Gerçek mi, Seçenek mi? , Doğu-Batı Dergisi, Sayı 18, Ankara. 2002
2. “Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı.
3. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”.
4. Əliyev H.Ə. “Təhsil millətin gələcəyidir”, Bakı, Təhsil, 2002, 580 s.
5. Əliyev.İ. Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncul istqamətlərindən biridir.Məqalə.Xalq qəzeti, N 209, 16. 09.
6. Qaralov Z.İ. İdeologiya və mənəviyyat. Bakı: Hüquq ədəbiyyatı,2013, 484 s.
7. Mahmudov M.C. Dünyada təhsil sistemləri. Bakı: Mütərcim, 2014, 480 s.
8. Eğitim bilimine giriş. Pegem Akademi. 2012. 350 s.
9. Akçay, Çengiz. Küreselleşme, Eğitimsel Yoksunluk ve Yetişkin Eğitimi, Milli Eğitim Dergisi, 2003. 316 s.



**Ханум Мустафаева**


### Парадигмы меняющихся ценностей и нового образования в условиях глобализации

### Резюме


В статье исследуются проблемы гуманитарного образования, которые связаны с процессом глобализации. К тому же, раскрываются факторы, которые воздействуют на гуманитарную политику - «Модерн проект». Здесь автор статьи затрагивает ряд взаимодействующих факторов, которые моделируют образование, культуру и накапливанию информации гуманистической философии в условиях глобализации. А так же, автор предлогает несколько методов присвоения интегрированных систем знаний и навыков, основанных на гуманистических принципах.



**Ключевые слова:** образование, гуманитарная политика, глобализация, система интегрированных знаний и навыков.



**Xanım**


### MustafaevaParadigms of changing values and new education under conditions of globalization

### Summary


The article explores the problems of humanities education, which are connected with the process of globalization. In addition, the factors that affect the humanitarian policy - the "Modern Project" - are revealed. Here the author of the article touches upon a number of interacting factors that model education, culture and the accumulation of information of humanistic philosophy in the context of globalization. And also, the author offers several methods of appropriating integrated systems of knowledge and skills based on humanistic principles.



**Keywords**: education, humanitarian policy, globalization, system of integrated knowledge and skills.

**Məqalənin redaksiyaya daxil olma**
**tarixi: 28.09.2017 Məqalənin təkrar**
**işlənməyə göndərilmə tarixi:**
**05.10.2017Məqalənin çapa qəbul**
**olunma tarixi:  21.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent SədaqətƏliyeva**
**ADMİU-nun Elmi Şurasının  21 dekabr  2017-ci il, 04 saylı qərarı ilə çap olunur**